# "Mahmud Kaşqari" mükafatları təqdim edilib





**Mahmud Kaşqari adına Beynəlxalq Fond 2006-cı ildə xalq yazıçısı Anar, Arif Əmrahoğlu və Elxan Zal Qaraxanlı tərəfindən qurulub. Fondun əsas məqsədi ortaq türk dəyərlərinin təbliğidir. Son on ildə Azərbaycanda və xaricdə bir sıra layihələri gerçəkləşdirən bu qurum, əsasən nəşr etdiyi kitabların satışından əldə edilən vəsait və ianələr hesabına fəaliyyət göstərir.**

10 ildə Fondun fəaliyyəti əsasən Azərbaycan, Türkiyə və Qazaxıstan respublikalarını əhatə edib və hazırda Fond fəaliyyət dairəsinin genişlənməsi və maddi imkanlarının gücləndirilməsi yolunda işlər aparır. Təşkilatın yaxın məqsədi türk tarixinin ən az öyrənilmiş dövrlərindən biri olan Mahmud Kaşqari dönəmi barədə bədii və ya sənədli film çəkilişidir. Azərbaycan və ümumtürk miqyasında bu mövzuya diqqətin artırılması üçün Mahmud Kaşqari adına Beynəlxalq Fond tərəfindən türk tarixinin ən böyük simalarından biri olan Mahmud Kaşqarinin anadan olmasının 1000 və təşkilatın yaradılmasının 10 illiyi münasibətilə "Mahmud Kaşqari" medalı təsis edilib. Medal türk dünyası qarşısında xidmətlərə, o cümlədən mesenat fəaliyyətinə görə təqdim olunur.

Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda türk tarixinin ən böyük simalarından biri olan Mahmud Kaşqarinin anadan olmasının 1000 və təşkilatın yaradılmasının 10 illiyi münasibəti ilə "Mahmud Kaşqari" medalının təsis olunmasına və medalın təqdim edilməsinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Mahmud Kaşqari adına Beynəlxalq Fondun fəaliyyətinə nəzər salınıb. Mahmud Kaşqaridən danışan AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli Kaşqarinin fəaliyyətinə yüksək qiymət verib. Bu mükafatın türk dünyasının birliyi və inkişafına xidmət etdiyini bildirib.

İlkin olaraq Fondun 10 illik fəaliyyətində ona mənəvi və maddi dəstək olmuş şəxslər mükafatlandırılıb. Mükafatlar tədbirdə AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, M.Kaşqari "Divan"ının Azərbaycan dilinə tərcüməçisi Ramiz Əsgər, bir sıra tarixi nəşrlərin çapında öz dəstəyini göstərmiş tanınmış yazıçılar - Hüseynbala Mirələmov, Yunuz Oğuz və Elçin İsgəndərzadə kimi tanınmış şəxslərə təqdim edilib.

Qeyd edək ki, Qazaxıstanda və Türkiyədə də bu cür təltifetmə mərasimləri keçiriləcək.

**Samir ZEYNALOV,**
**"Respublika".**